Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



`

# Şərqdə ilk opera yazan qadın bəstəkar

**Azərbaycanın ilk opera yazan qadın bəstəkarı, Xalq artisti Şəfiqə Axundovanın 95 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Şərqdə ilk opera yazan qadın bəstəkar:** Şəfiqə Axundovanın 95 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait /Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası ; tərt.ed. K. Səmədzadə ; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı : F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2019. - 18 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

# I Bölmə

## Həyat və yaradıcılığı

### Şairlərin sözlərinə yazdığı musiqilər kimi, öz sözləri də şairanə – Şəfiqə Axundova...

Çöhrəsində əsl Azərbaycan xanımlarına məxsus təbəssüm, nur və gözəllik olan Şəfiqə xanım Axundova Şərqdə ilk opera yazan azərbaycanlı xanımdır. 1924-cü ildə Şəkidə anadan olan Şəfiqə xanım Axundova, 1943-1944-cü illərdə Asəf Zeynallı adına Bakı musiqi məktəbinə daxil olmuş və orada dahi Üzeyir Hacıbəyovdan dərs almışdır. Musiqiyə olan həvəsi sonradan onu Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsinə gətirib çıxarıb.

Xalq artisti bəstəkar Şəfiqə Axundova Azərbaycan musiqi mədəniyyətinin inkişafına əhəmiyyətli töhvə vermiş qadın bəstəkarlar içərisində görkəmli yer tutur. Onun əsərləri musiqi aləmində geniş yayılmış, dinləyicilər tərəfindən rəğbətlə qarşılanmışdır. Bu xoş tərənəli əsərlər Azərbaycanın konsert salonlarında, eləcə də bir çox xarici ölkələrdə uğurla səslənməkdədir.

Bir çox dram əsərlərinə yazılmış musiqinin, “Gəlin qayası” operasının, “Ev bizim, sirr bizim” operattasının, mahnı və romansların, habelə orkestr üçün rəngarəng əsərlərin müəllifi olan Şəfiqə Axundova Azərbaycan bəstəkarlarının adlı-sanlı ailəsində özünəməxsus yer tutur. Şəfiqə xanım Axundovanın yaradıcılıq istedadı özünəməxsus keyfiyyətlərə malikdir. Hər şeydən əvvəl, onun yaradıcılığı üçün lirik lövhələr xarakterikdir, ona görə də, bütün əsərlərində qəlbin emosional hərarəti duyulur. Sənətkarın musiqisinə xas olan dinamizm xüsusilə diqqəti cəlb edir.

Bəstəkarın musiqisi çox sadə və aydın melodik lövhəlidir, sədası elə bil ürəkdən gəlir. Şəfiqə xanımın əsərlərinin melodiyaları şairanə və zövqvericidir, doğma təbiəti, qəlbin gözəlliyini, milli xarakterin xüsusiyyətlərini incə musiqi boyaları ilə təsvir edir. Onun musiqisində canlı və emosional melodiyalar həzin-həzin axır, təranələr pərdədən-pərdəyə keçir, aydınlığı və genişliyi ilə qəlbi oxşayır.

Şəfiqə Axundova muğam intonasiyaları və ahəng düzümü xüsusiyyətlərindən istifadə edərək muğam, ritm probleminə çox gözəl giriş üslubu tapır.

Şəfiqə xanım Axundova 1924-ci il yanvarın 21-də Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biri olan Şəki şəhərində tanınmış ziyalı Qulam Bağır oğlu Axundovun ailəsində anadan olmuşdur. Şəki qəzası rayon komitəsinin birinci katibi Qulam Axundov ictimai işlərdə son dərəcə fəal olmuş, yoxsullar üçün məktəblər açmış, teatr təşkil etmiş və digər mütərəqqi tədbirlər həyata keçirmişdir. Qulam Axundov, eləcə də “Şəki” qəzetinin yaradıcısı və redaktoru olmuş, ömrünün axırınadək vicdanla, fədakarcasına işləmiş, bütün həyatı boyu xalqa xidmət etmişdir.

Şəfiqə Axundovanın anası Züleyxa Səməd qızı Axundova Azərbaycanın yazıçı-dramaturqu, filosof və böyük ictimai xadim Mirzə Fətəli Axundovun nəslindəndir.

Şəfiqə Axundova ardıcıl musiqi təhsili almış, Asəf Zeynallı adına musiqi məktəbində tar sinfi üzrə Ağabacı Rzayevanın, nəzəriyyə üzrə Məmməd Nəsirbəyovun, sonra da Azərbaycan Dövlət Konservatoriyasında (indiki BMA) bilavasitə Üzeyir Hacibəylinin rəhbərliyi ilə musiqi təlimi keçmişdir.

1951-1956-ci illərdə Ş. Axundova hazırda Azərbaycanın müxtəlif bədii yaradıcılıq ocaqlarında müvəffəqiyyətlə işləyən bir çox musiqiçi yetişdirmiş və dərin bilikli pedaqoq B. Zeydmanın kompozisiya sinfində oxumuşdur.

Hələ konservatoriya illərində o bir sıra mahnılar, xalq melodiyaları, instrumental əsərlər yaradıb ki, bu gənc müəllifin istedadlı olduğunu və onun müəyyən professional vərdişlərə yiyələndiyini sübut edirdi.

Şəfiqə Axundovanın musiqiçi – bəstəkar kimi formalaşmasında görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin rolu çox böyükdür. Bunu Şəfiqə Axundova öz müəllimi haqqında xatirələrində bir daha təsdiq edir: "Hara getsəm, harada olsam, həmişə Azərbaycana yaxınlaşanda Koroğlunun qəhrəmanlıq sədasını, qəhrəmanlıq uvertürasını eşidirəm... Bu səslər relsin səsi ilə, gur çayların zümzüməsi ilə qovuşaraq bir növ "Cəngi"-nin ahənginə çevrilir". Bəstəkarda belə assosiasiyaların əmələ gəlməsi heç də təsadüfi deyildir, çünki Şəfiqə Axundovanın yaradıcılığı məhz bu ahənglərlə qırılmaz surətdə bağlıdır.

Şəfiqə xanımın bəstəkarlıq fəaliyyətinə başlaması ağır müharibə illərinə təsadüf edir. Ona görə də onun əsərlərində düşmənə qarşı vuruşlarda xalqın qəhrəmanlığı tərənnüm edilir. Elə həmin illərdə tarixçi-musiqişünas Q. Qasımov yazmışdı: "Şəfiqə Axundova öz gözəl musiqisi ilə vətənə xidmət edən ilk gənc bəstəkar qızlarımızdan biridir".

# Bölmə II

## Yubiley tədbirlərinin keçirilməsi

Şəfiqə Axundovanın 95 illik yubileyi ilə bağlı respublikamızın hər bir musiqi ocaqlarında, kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi üçün rəngarəng tədbirlər planı hazırlanmışdır. Tədbirlər planının geniş və maraqlı olması üçün ilk növbədə kitabxanada bəstəkarın musiqi əsərləri, həyat və yaradıcılığını əks etdirən foto sərgi təşkil olunur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: "Şərqdə ilk opera yazan qadın bəstəkar", "Şərqin ilk qadın bəstəkarı", "Ömürdən bir gün də keçdi", "Şəfiqə Axundova – 95" və s.









## Görkəmli şəxslər Şəfiqə Axundova haqqında

Şəfiqə xanım Axundova dövlət tərəfindən hər zaman layiq olduğu qiymətini, mükafatlarını alıb.

**Pərixanım Mikayılqızı,**
*Siyasi Sənədlər Arxivinin şöbə müdiri*

Şəfiqə xanımın öz mahnıları və digər janrlı əsərləri üçün seçdiyi mətnlər də xüsusi diqqətə layiqdir.

**Tahir Əhmədalılar,**
*Xalq artisti, Dövlət mükafatı laureatı*

Şəfiqə Axundova öz gözəl musiqisi ilə vətənə xidmət edən ilk gənc bəstəkar qızlarımızdan biridir.

**Q. Qasımov,**
*tarixçi-musiqişünas*

Şəfiqə Axundovanın yaradıcılığı onunla diqqəti cəlb edir, ürəyə yatır ki, bəstəkar müraciət etdiyi hər hansı janrı son dərəcə dərindən öyrənir, cərəyan edən bütün hadisələrin ruhunu duyur, yaşayır, onları öz fərdi imkan süzgəsindən keçirir.

**Zemfira Qafarova,**
*Əməkdar incəsənət xadimi, musiqişünas, pedaqoq*

*"Gəlin qayası" operası haqqında sənət adamlarının fikirləri:*

Opera çox gözəldir, melodiyası aydındır. Burada bəstəkar muğamdan bilə-bilə geniş istifadə edib. Bu çox yaxşıdır, səmərəsi əladır.

**Tofiq Quliyev,**
*Xalq artisti, bəstəkar*

Mən operaya böyük fərəhlə, həvəslə tamaşa etdim. Şəfiqə xanım çox əziyyət çəkib. Opera məni qane etdi.

**Vasif Adıgözəlov,**
*Xalq artisti, bəstəkar*

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında bəstəkar Şəfiqə Axundovanın 95 illik yubileyi ilə bağlı "Nağıl otağında" "Uşaqların sevimli bəstəkarı Şəfiqə Axundova" adlı söhbət keçirilir. Söhbətə kitabxanaçı belə başlayır.

*Kitabxanaçı:* Əziz uşaqlar! İlk əvvəl sizinlə Şəfiqə Axundova yaradıcılığına nəzər salaq. Şəfiqə Axundova anamız Azərbaycanın dilbər guşələrindən biri sayılan Şəkidə anadan olmuşdur. Azərbaycan musiqisi sənətinin əvəzolunmaz bəstəkarı Şəfiqə xanım bildiyiniz kimi, fortepiano üçün bir sıra uşaq pyeslərinin müəllifidir. Bir müddət Bakı şəhərinin mədəniyyət evinin birində xor dərnəyinə rəhbərlik etmiş, Şəfiqə xanım Axundova təsadüfi deyil ki, respublikamızda uşaq musiqi həftəsi çərçivəsində keçirilən görüşlərdə dəfələrlə iştirak etmişdir. Onun qəzət və jurnallarda uşaqlara həsr etdiyi mahnıları mütəmadi dərc olunur. Bu mahnıların sırasında X. Əlibəylinin sözlərinə bəstələnmiş "Pişik" mahnısı daha çox sevilmiş və yayılmışdır.

*Uşaqlar üçün "Pişik" mahnısı səslənir.*

Onun bəstələdiyi "Salam, doğma məktəb" (söz. H. Arifin), "May gələndə" (söz. Xəlil Rza), "Qar", "Bənövşə", "Hədiyyə", "İşıq", "Belə qardaş", "Qış", (söz. X. Əlibəyli) kimi mahnıları siz uşaqların dilindən düşmür. "Təlxəyin nağılı", "Dovşanın ad günü", "Tülkü və Canavar", "Balaca komandir" adlı uşaq tamaşalarına yazdığı musiqiləri də siz uşaqların rəğbətini qazanmışdır.

*Sonda kiçik yaşlı uşaqlar üçün "Tülkü və Canavar", "Dovşanın ad günü" adlı tamaşa göstərilir. Qeyd edək ki, həmin tamaşaların musiqilərini məhz Şəfiqə Axundova yazmışdır.*

Bəstəkar, gözəl insan Şəfiqə Axundovanın yaradıcılıq yubileyi ilə bağlı kitabxanada *kitab müzakirəsinin* keçirilməsi məqsədəuyğun olardı. Beləki, həmişə Azərbaycan bəstkarlarına, musiqiçilərinə xüsusi diqqət və önəm verən musiqişünas,

Zemfira Qafarovanın istadadlı qələmi bir sıra bəstəkarlarımızın həyat və yaradıcılıqlarını, əsərlərinin üslub xüsusiyyətlərini işıqlandırmışdır. Onun Ramiz Mustafayevə, Tofiq Bakıxanova, Hacı Xanməmmədova, Şəfiqə Axundovaya həsr etdiyi monoqrafiyaları, Ü. Hacıbəyovun “Koroğlu” operası üzrə tədqiqat işi və sonradan onun əsasında hazırlanan “Koroğlu” dərs vəsaiti, bir sıra məruzə çıxışları və məqalələri peşəkar musiqiçilərin və musiqisevərlərin nəzər diqqətində olub Azərbaycan milli musiqisinin təbliğinə qulluq edir.




Bəli, bu gün biz musiqişünas Zemfira Qafarovanın 2015-ci ildə “Şərq-Qərb” Nəşriyyat Evi tərəfindən çap edilmiş “Şəfiqə Axundova” adlı kitabının müzakirəsinə yığışmışıq. Kitabın üz qabığında bəstəkar Şəfiqə Axundovanın çöhrəsində gülüş əks olunan gözəl bir şəkli əks olunub. Kitab Şəfiqə Axundovanın həyat və yaradıcılığından bəhs olunur. Burada bəstəkarın həyat və yaradıcılığı o qədər geniş şəkildə təsvir olunub ki, onun haqqında başqa bir mənbəyə istinad etməyə heç ehtiyac da duyulmur.

Kitabda Şəfiqə Axundovanın əsərlərinin siyahısı da geniş şəkildə verilmişdir. Həmçinin Şəfiqə Axundovanın şəxsi albomundan seçilmiş şəkillər də kitabda öz əksini tapmışdır.

Görkəmli bəstəkar Şəfiqə Axundovanın 95 illik yubileyi ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasında *xatirə geçəsinin* keçirilməsi nəzərdə tutulmuşdur. Kitabxanaçı xatirə gecəsinə iki ay qabaqcadan hazırlaşmalıdır. Əvvəl tədbirin ssenarisi hazırlanır. Tədbirdə iştirak edən qonaqlar müəyyənləşdirilir. Tədbir iki hissədən ibarət olur. Birinci hissədə çıxış və məruzələr dinlənilir. İkinci hissədə isə

bəstəkarın əsərlərindən, operettalarından musiqilər səsləndirilir. Tədbirdə iştirak edən Azərbaycan musiqi sənətinin layiqli ifaçıları Xalq artistləri, bəstəkarlar, xanəndələr, müğənnilər Şəfiqə xanım haqqında ürək sözlərini, xatirələrini danışdıqdan sonra söz musiqiçilərə verilir. "Şəfiqə Axundova – 95" adlı xatirə gecəsinin ssenarisini nümunə üçün veririk. Səhnədən Şəfiqə Axundovanın  portreti asılır. Yubileylə bağlı səhnə gül-çiçəklə bəzədilir. Aparıcılar səhnəyə daxil olur.

**I aparıcı:** Şərqdə ilk opera yazan qadın – bəstəkar Şəfiqə Qulam qızı Axundova... Musiqi aləminə gəlişi üçün nəinki həyat, hətta ailə, ata çətinlikləri ilə də üzləşib. Şəfiqə xanımın dediklərindən: "Bir gün atam Konservatoriyaya getməyimdən xəbər tutub məni cəzalandırdı; evə buraxmadı. Qonşuda gecələməli oldum. Anam ağlayıb, o isə deyib, dəymə, qoy ağlı başına gəlsin, özünə düz-əməlli sənət seçsin".



"Düz-əməlli sənət" seçmək istəməyən bu "tərs" qızcığaz 1943-1944-cü illərdə A. Zeynallı adına Bakı Musiqi Məktəbində, son nəfəsinədək hamıdan çox sevdiyi, haqqında yorulmadan danışdığı Üzeyir bəy Hacıbəylidən dərs alıb.  Şəfiqə xanımın bəstəkarlıq fəaliyyətinə başlaması ağır müharibə illərinə təsadüf edir. Ona görə də onun əsərlərində düşmənə qarşı vuruşlarda xalqın qəhrəmanlığı tərənnüm edilir.

Ş.Axundovanın dediklərindən: "Atam istəyirdi ki, həkim olum. O, çox ciddi adam idi. Evimizdəki pianonu qıfıllı saxlayırdı ki, mən çalmayım. Deyirdi ki, bu sənətdə çörəkpulu yoxdur. Sən elə istedadlısan ki, həkim kimi də məşhur olarsan... Anam isə mənə çox dəstək olurdu. Amma sonralar atam da bu seçimimlə barışdı. Mahnılarımı eşitdikcə çox sevinirdi...

*Musiqi səslənir.*

**II aparıcı:** Şəfiqə Axundovanın yaradıcılığı onunla diqqəti cəlb edir ki, həm Bakıda, eləcə də vətənimizin bir çox guşələrində səhnəyə qoyulmuş, müxtəlif dram tamaşalarına çox maraqlı və yaddaqalan musiqilər yazmışdır. Cəfər Cabbarlının "Aydın", Bəxtiyar Vahabzadənin "Vicdan", Həsən Seyidbəylinin "Böyük ürək" kimi dram əsərlərinin tamaşalarına bəstələdiyi musiqilər xüsusilə fərqlənir. Şəfiqə Axundova hər hansı dinləyici auditoriyası üçün anlaşıqlı, parlaq və inandırıcı musiqi obrazları yarada bilmişdir.

Digər Azərbaycan bəstəkarları ilə yanaşı Ş. Axundovanın vətənpərvərlik mahnıları çox olub. Onun öz oğlunu döyüş meydanına yola salan ana obrazını canlandırdığı Aşıq Mirzə Bayramovun sözlərinə yazdığı "Balam" mahnısı da bu qəbildəndir. Bəstəkarın "Vətən haqqında mahnı", "Sevgilim", "Vətənə məhəbbət", "Nə gözəlsən", "Çiçək", "Biz qalib gələcəyik", "Hind qızı", "Nə gözəldir kəndimiz" və bu kimi mahnlar da bu qəbildəndir.

*"Nə gözəldir kəndimiz" adlı mahnı səsləndirilir.*

**I aparıcı:** Yəqin ki, hamınız "Lay-lay"ı əzbər bilirik. Nənəmizdən, anamızdan ilk eşitdiyimiz nəğmə elə "lay-lay" olub. Həmin nəğmə ki, onu Şəfiqə xanım öz oğlu Taleh Hacıyev üçün bəstələmişdi. "Lay-lay" dan sonra Şəfiqə xanım "Nədən oldu", "Həsrətindən", Gözlərimin işığı sənsən", "Mehriban olaq", "İntizar", "Neyçün gəlməz" kimi məşhur manılarını yazır.

Mahnı janrı və dram tamaşalarına musiqi bəstələmək sahəsindəki səmərəli işi Şəfiqə Axundovanı irihəcmli musiqili teatr səciyyəli kamil konsepsiyalar yaratmağa sövq etmişdir.
Ş. Axundovanın musiqili komediya janr sahəsindəki ilk çıxışı da uğurlu olmuş, onun premyerası 1965-ci ildə Ş. Qurbanov adına Musiqili Komediya Teatrında göstərilmişdir.

Şair Novruz Gəncəlinin librettosu əsasında Şəfiqə xanımın yaratdığı "Ev bizim, sirr bizim" operettası müasir həyatın, gəncliyin mənzərəsini canlandırır, tamaşanın gənc qəhrəmanlarının seçdiyi halal yolun qəhrəmanlıq pafosunu tərənnüm edir. Şəfiqə Axundovanın və Novruz Gəncəlinin operettası şəhərdə qalmaq üçün cürbəcür hiylələrə əl atanları tənqid edir.

Geniş yayılmış mahnıların müəllifi Şəfiqə Axundova öz yaradıcılığında opera kimi mürəkkəb professional musiqi janrına da müraciət edib. Şəfiqə Axundovanın 1974-cü ildə yaratdığı operası, həqiqətən, bəstəkarın yaradıcılıq tərcümeyi-halında mühüm hadisədir. Şəfiqə Axundovanın "Gəlin qayası" əsəri bir çox cəhətdən Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının ənənələrini davam etdirir. Şəfiqə xanımın etiraf etdiyi kimi, o, böyük bəstəkarın "Leyli və Məcnun"una yaxın bir opera yaratmaq cəhdini gizlətmir. Bu operanı "Leyli və Məcnun"a yaxınlaşdıran cəhət hər şeydən əvvəl, onun ideyasıdır. Operanın qəhrəmanı Gülbahar ölərkən ucadan deyir ki: "Qaya kimi sarsılmaz, möhkəm məhəbbət məhv ola bilər, lakin vəfasını itirməz".

Bəstəkar deyir: Opera yazmaq mənim çoxdankı arzum idi. Ürəyimə yatan sujeti tapa bilmirdim. Belə oldu ki, bir gün Süleyman Rəhimovun "Gəlin qayası" povesti üçün radio verilişi hazırlanırdı. Mən yazıçının əsərini oxudum və çox xoşuma gəldi.

Musiqisi Şəfiqə Axundova tərəfindən bəstələnmiş "Gəlin qayası" radio-pyesi ilk dəfə efirdə 1962-ci ildə səslənmiş və dinləyicilər tərəfindən bəyənilmişdir. "Gəlin qayası" operası Şəfiqə Axundovanın yaradıcılıq tərcümeyi-halında əhəmiyyətli hadisə olmaqla yanaşı, həm də onun rəngarəng yaradıcılığını bir növ daha yüksək zirvəyə çatdırır...

Şəfiqə Axundovanın "Gəlin qayası" operası bədii yaradıcılıq sahəsində fəaliyyət göstərən ziyalılar və ictimaiyyət tərəfindən bir lirik manhı operası kimi qarşılanmışdı. Ona görədir ki, Şəfiqə Axundovanın operasında, bəstəkarın yaratdığı digər janrlarda olduğu kimi, onun mahnı janrına olan sevgisi öz əksini tapmışdır.

*"Gəlin qayası" adlı operadan musiqi səslənir.*

**II aparıcı: Şəfiqə xanımın dediklərindən:** "Bu sənətdə olmaq üçün çox ağır yollar keçmişəm. Ən çətin dərdlərimə belə səbrlə yanaşmışam. Bununla da mən udmuşam. Nə cür ağır şərait olursa olsun, mahnı bəstələməkdən əl çəkə bilmirəm. Bu müddət əvvəl "Ömürdən bir gün də keçdi" musiqisini bəstələmişəm. Doğum günümə həsr etmişdim. Hərdən qulaq asıb ağlayıram. Qocalıq bir şey deyil. İnsanın beli yerə gəlir. 86 yaşımda yazıb-yaratmaq istəyirəm. Sinəmdə ürəyim döyünür, amma fiziki gücsüzlüyüm buna imkan vermir". "Məni xoşbəxt edən məqam yaradıcılığımdır. Hərdən yaratdıqlarımı qarşıma töküb uzun-uzadı onları seyr edirəm. Düşünürəm ki, bunları xalqım üçün qoyub gedəcəm. İnsanlar məni  bunlarla xatırlayacaqlar. Hərdən musiqiçilərin yaradıcılıq gecələrinə, tədbirlərə getmək istəyirəm. Ayağımdakı problemlər aradan qalxsa da, yerimək problemim var".



**I aparıcı:** Ömrünün 70 ildən bir qədər çoxunu bəstəkarlığa həsr edən Şəfiqə xanım Azərbaycan musiqisinə Taleh kimi bir övlad da bəxş etmişdir. Gözəl piano ifaçısı olan mərhum Taleh Hacıyev anasının yaradıcılığından bəhrələnərək, bir neçə mahnı yazmışdır. Bir çox müğənnilərin repertuarına daxil olan "Belə qəmli dayanma" mahnısı Talehə aid olan ən gözəl mahnılardandır. İstedadlı pianoçu Taleh sanki anasının davamçısı idi. Amma nə yazıq ki, insan həyatda bəzən

gözlənilməz hadisələri yaşamalı olur. Şəfiqə xanım bu gözlənilməz hadisələrin ən kədərli gününü ahıl yaşlarında yaşadı. Yeganə oğlu Talehin ölümü ilə barışmayan bu xanım özünü nə qədər iradəli, mətin saxlamağa çalışsa da, ana qəlbinin çəkdikləri onu sarsıtdı. Xəstəxanada vəfat edən oğlunun ölümünü ondan düz 40 gün gizlətsələr də, nəhayət, söyləməli oldular. O dəhşətli faciədən sonra Şəfiqə xanım yaradıcılıqla məşğul ola bilmədi. Hər dəfə bir bəhanə gətirdi. Çünki hər zaman yaradıcılığında yanında olan oğlu indi yox idi. O səssizlikdən, Talehsizlikdən onun zərif ana qəlbi sızıldayırdı. Talehsiz günlərini yaşayan bu talesiz qadın ictimai həyatda xoşbəxt olsa da, ailə həyatında xoşbəxt ola bilmədi. Yeganə övladı olan Talehindən bir nişanəsi belə qalmadı. Ana üçün həyatda bundan ağır dərd, kədər ola bilməz.

*“Belə qəmli dayanma” musiqisi səslənir.*

**II aparıcı:** Şəfiqə Axundova mətbuat səhifələrində də musiqiyə aid müxtəlif problemlərə toxunaraq maraqlı məqalə və resenziyaları ilə çıxış etmişdir. Onun əsərlərində ifadə olunan əhval-ruhiyyə, hisslər və fikirlər rəngarəngdir. Bunları bəstəkarın yaradıcılığının əsas mövzusu, ana xətti olan vətənə məhəbbət birləşdirir ki, bu da onun al-əlvan musiqili əsərlərində gah xoş təbəssümlə, gah dramatik pafosla, gah da əzəmətli təntənə ilə təzahür edir.

Şəfiqə Axundovanın qəlboxşayan xoş təranələri, müxtəlif janrlarda yazılan əsərləri musiqi xəzinəmizə, musiqi ailəmizə daimi olaraq daxil olur. Onun musiqisi müntəzəm olaraq radio və televiziya ilə verilir, konsert salonlarında və estrada meydançalarında səslənir. Bunların hamısı onu göstərir ki, bəstəkarın əsərləri geniş dinləyici kütlələri tərəfindən daima sevilir və sevilməkdədir.

Azərbaycan xalq mahnılarının ruhunu dərindən duymaq Şəfiqə Axundovanın mahnı materialının ən qiymətli səciyyəvi

xassələrindən birini, onun mövzu və melodiya aydınlığını müəyyən edir. Azərbaycan mahnı ünsürlərinin dərindən dərk edilməsi, milli üslubun düzgün hiss olunub qavranılması Şəfiqə Axundovanın mahnı yaradıcılığına həmişə xas olmuşdur.

"Azərbaycan gəncləri" qəzetinin "Müasir mahnılar yaradaq" məqaləsində qaldırdığı problemə həsr olunmuş konfransla əlaqədar çıxışında Şəfiqə Axundova demişdi: "Dinləyicilər tez-tez soruşurlar ki, lazımsız mahnıların meydana çıxmasında günahkar kimdir? Mənə elə gəlir ki, bunda, ilk növbədə, o mahnının sözlərini yazan şairin günahı vardır. İkinci günahkar belə şeirlərə mahnı yazan bəstəkardır. Üçüncü günahkar müğənnidir ki, belə mahnını öz repertuarına salır. Mənə elə gəlir ki, mahnı üçün məhz bu adamlar cavabdehdilər. Müəllimim Üzeyir Hacıbəylinin prinsiplərini mən heç zaman unutmaram. O deyərdi ki, mahnının yolu mətndən başlayır. Bu sözlərdə böyük həqiqət var. Biz bəstəkarlar, hər şeydən əvvəl, yaxşı mətnlə işləməliyik". Bəstəkarı hər dəfə, yəni hər yeni manhı yazanda belə bir məsələ narahat edirdi. O həmişə düşünürdü ki, görəsən, bu mahnı dinləyicilərin xoşuna gələcəkmi, estetik zövqün inkişafına kömək edəcəkmi. Şəfiqə xanım deyir: "Mahnıların müəllifləri bunu heç vaxt unutmamalıdırlar. Ən yaxşı tənqidçi bizim tələbkar dinləyicilərimizdir".

**I aparıcı:** Ömrünü yaradıcılığa həsr etməsi Şəfiqə Axundovanı cəmiyyətdən kənar yaşamağa, bir növ özünə qapanmağa gətirib çıxarmırdı. O, bəstəkarlıqla yanaşı, ömrünün axırına qədər Azərbaycanın fəal ictimai xadimlərindən biri olmuşdu. Bir müddət o, istedadlı oğlu, pianoçu Taleh Hacıyevlə bərabər respublikanın kənd və şəhər əməkçiləri ilə yaradıcılıq görüşlərində iştirak etmişdir.

Bəstəkarın 50, 60, 70 illik yubileyləri yüksək səviyyədə qeyd olunmuş, 85 illik yubileyi isə 2009-cu ilin may ayında Şəkidə keçirilmişdir. Ömrünün sonunacan Şəfiqə xanım əsərlər yazmış,

Azərbaycanda keçirilən bütün tədbirlərdə aktiv iştirak etmiş, Şəkidə keçirilən "İpək yolu" Beynəlxalq festivalının daimi iştirakçısı olmuşdur. 1998-ci ildə "Xalq artisti" fəxri adına, 2004-cü ildə "Şöhrət" ordeninə layiq görülən xanım, bircə övlad payından mükafatını doyunca dada bilmədi. Azərbaycan opera sənətinin dahi qadın bəstəkarı, dünyaya Şərqin ilk opera yazarı kimi səs salan Şəfiqə xanım Axundova, 2013-cü ilin 26 iyul tarixində ciyərparası, yeganə övladı Talehə qovuşmaq üçün gözlərini əbədi olaraq həyata yumdu, Talehinə qovuşmağa getdi.

Şəfqə xanım Axundova R. Behbudov adına Mahnı teatrından "Həyat sən nə şirinsən, kim səndən doydu getdi" mahnısının sədaları ilə gurultulu alqışlarla, təmtəraqla son mənzilə yola salındı.

Tədbir Şəfiqə Axundovanın musiqisinə bəstələnmiş mahnısı ilə sona çatır...

*Yandı ürək kabab oldu,*
*Gül bağçamda xəzan oldu,*
*Mən ki səndən ayrılmazdım,*
*Bu ayrılıq nədən oldu?..*

## Ədəbiyyat siyahısı


**Axundova Şəfiqə Qulam qızı** // Azərbaycan Milli Ensiklopediyası. – Bakı : Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, 2009. – C.1 : A-Argelandr. – S. 223.

**Qafarova Z.** Şəfiqə Axundova. - Bakı : Şərq-Qərb, 2015. - 32 s.

**Qurbanlı R.** "Bolşevik" Qulamın nəğməkar qızı // Kaspi. - 2018. - 6 oktyabr. - **№ 167**. - S. 14.

**Şəfiqə Axundova (1924-2013)** // Savalan. - 2018. - 30-31 yanvar. - **№ 5**. - S. 2.

# Şərqdə ilk opera yazan qadın bəstəkar

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 05
Çapa imzalanmışdır: 15.01.2019
Tirajı:100
Pulsuz